1. Sinqulyar inteqral tənliklər nəzəriyyəsindən bəzi məlumatlar.

$$K^0 Y \equiv K_0 Y + RY = f \qquad (1.1)$$

sinqulyar inteqral tənliyinə baxaq, burada

$$K_0 Y(t) \equiv a(t)Y(t) + \frac{b(t)}{\pi}\int_{-1}^{1}\frac{Y(\tau)}{\tau - t}d\tau,$$

$$RY(t) \equiv \int_{-1}^{1} R(t,\tau)Y(\tau)d\tau,$$

burada a, b, f və R (hər iki arqumentə görə) - $H([-1,1])$ sinfinə daxil olan funksiyalar, bütün $t \in [-1,1]$ üçün $a^2(t) + b^2(t) > 0$.

$a(t) \equiv 0$ və $b(t) \neq 0$ olduqda (1.1) tənliyi *I növ sinqulyar inteqral tənlik* adlanır. Ümumiliyi pozmadan I növ tənlik üçün $b(t) \equiv 1$ qəbul edəcəyik.

(1.1) tənliyinə uyğun olan $K_0 Y = f$ tənliyi xarakteristik sinqulyar inteqral tənlik adlanır.

(1.1) tənliyinin həlli $H^*([-1,1])$ sinfində axtarılır. $\Phi \subset H^*([-1,1])$ (1.1) tənliyinin bütün həllər çoxluğu *h_0, $h(-1)$, $h(1)$* və *$h(-1,1)$* siniflərinə bölünür. *h_0* – [-1,1] parçasının uclarının yaxınlığında qeyri-məhdud olan $H^*([-1,1])$-yə daxil olan funksiyalar sinfidir; *$h(-1)$ ($h(1)$)* – $H^*([-1,1])$ sinfindən olan, -1 ucu (1 ucu) yaxınlığında məhdud funksiyalar sinfidir; *$h(1,1)$* – $H^*([-1,1])$ sinfindən olan, -1 və 1 ucları yaxınlığında məhdud funksiyalar sinfidir. Bu siniflərin hər birinə özünün kanonik funksiyası uyğudur.

Tutaq ki,

$$\theta(t) = \frac{1}{\pi}\arg(a(t) + ib(t))$$

$\frac{1}{\pi}\arg(a(t) + ib(t))$ çoxqiymətli funksiyasının hər hansı kəsilməz və birqiymətli budağıdır.

Onda belə bir

$$X(z) = (1-z)^p(-1-z)^q \exp(-\int_{-1}^{1}(\tau - z)^{-1}\theta(\tau)d\tau), \quad z \in [-1,1]$$

kimi kanonik funksiyaya və

$$Z(t)=(1-t)^p(1+t)^q\exp\left(-\int_{-1}^{1}(\tau-t)^{-1}\theta(\tau)d\tau\right),\quad t\in(-1,1)$$

kimi fundamental funksiyaya baxaq, burada *p* və *q* – tam ədədlərdir və h_0 sinfində $-1<p-\theta(1)<0$, $-1<q+\theta(-1)<0$ şərtlərinə, *h(-1)* sinfində $-1<p-\theta(1)<0$, $0<q+\theta(-1)<1$ şərtlərinə, *h(1)* sinfində $0<p-\theta(1)<1$, $-1<q+\theta(-1)<0$ şərtlərinə, *h(1,1)* sinfində isə $0<p-\theta(1)<1$, $0<q+\theta(-1)<1$ şərtlərinə tabedirlər.

Əgər $\theta(1)$ $(\theta(-1))$ – tam ədədlərdirsə onda *p (q)* birqiymətli təyin olunur, $p=\theta(1)$ $(q=-\theta(-1))$. $\chi=-(p+q)$ ədədi (1.1) tənliyinin (K^0 operatorunun) indeksi adlanır.

Aydındır ki,

$\rho(t)=z(t)/r(t)$ və $\omega(t)=1/z(t)r(t)$ (burada $r(t)=\left(a^2(t)+b^2(t)\right)^{1/2}$)

funksiyaları aşağıdakı şəkildədirlər:

$$\rho(t)=(1-t)^{\alpha}(1+t)^{\beta}\Omega_1(t),$$

$$\omega(t)=(1-t)^{-\alpha}(1+t)^{-\beta}\Omega_2(t).$$

Burada $\alpha=p-\theta(1)$, $\beta=q+\theta(-1)$ qəbul olunub. $\Omega_1(t)=\Omega(t)/r(t)$ və $\Omega_2(t)=1/\Omega(t)r(t)$ isə mənfi deyillər və [-1,1] - də inteqrallanandırlar,

$$\Omega_j(\pm1)=\lim_{t\to\pm1}\Omega_j(t)\neq0,\qquad j=1,2$$

$$\Omega(t)=\exp\left\{(\theta(1)-\theta(t))\ln(1-t)+(\theta(t)-\theta(-1))\ln(1+t)-\right.$$

$$\left.-\int_{-1}^{1}\frac{\theta(\tau)-\theta(t)}{\tau-t}d\tau\right\}.$$

Həqiqi sabit əmsallar üçün, h_0 sinfində $a\neq0$, $b\neq0$, $(a^2+b^2=1)$, $-1<\theta=\frac{1}{\pi}\arg(a+ib)<1$, $z(t)=(1-t)^{\alpha}(1+t)^{\beta}$, $\omega(t)=1/z(t)$, $\alpha=p-\theta$, $\beta=q+\theta$, $\chi=1$; *h(-1)* və *h(1)* siniflərində $\chi=0$; *h(1,1)* sinfində isə $\chi=-1$. I növ inteqral tənlik üçün h_0 $(\chi=1)$ sinfində $(a=0,\ b=1)$, $\theta=1/2$, $z(t)=(1-t)^{\alpha}(1+t)^{\beta}$, $\omega(t)=(1-t)^{-\alpha}(1+t)^{-\beta}$, $\alpha=\beta=-1/2$; *h(-1)* *h(1)* $(\chi=0)$ sinfində $-\alpha=\beta=1/2$ $(\alpha=-\beta=1/2)$; *h(1,1)* $(\chi=-1)$ sinfində $\alpha=\beta=1/2$.

h_0 , *h(-1)*, *h(1)* və *h(1,1)* siniflərində (1.1) tənliyinin həlli naməlum *u(t)* funksiyasına nəzərən

$$K^0(\rho u)(t)=f(t)\qquad(1.2)$$

sinqulyar inteqral tənliyinin həllinə gətirilir, burada $\rho(t) = z(t)/r(t)$ və $z(t)$ - uyğun fundamental funksiyadır.

Teorem 1.1. Əgər $\chi > 0$, onda

$$K^0(\rho u)(t) = f(t) \tag{1.3}$$

tənliyinin

$$\int_{-1}^{1} \rho(\tau)\tau^k u(\tau)d\tau = D_k, \quad k = 0,1,2,...,\chi - 1 \tag{1.4}$$

şərtləri ödəndikdə (burada D_0, D_1, D_2,..., $D_{\chi-1}$ verilmiş həqiqi sabitlərdir)

$$U(t) = B(\omega f)(t) + b(t)\,Q_{\chi-1}(t)$$

yeganə həlli var, burada

$$B(x)(t) \equiv a(t)x(t) - \frac{b(t)}{\pi}\int_{-1}^{1}\frac{x(\tau)}{\tau - t}d\tau,$$

$\chi - 1$ dərəcəli $Q_{\chi-1}(t)$ polinomunun c_0, c_1, c_2,..., $c_{\chi-1}$ əmsalları isə aşağıdakı xətti cəbri tənliklər sistemindən təyin olunur:

$$\sum_{s=0}^{\chi-1} c_s \int_{-1}^{1} \rho(\tau)\tau^{s+\nu} b(\tau)d\tau = D_\nu, \qquad \nu = 0,1,2,...,\chi - 1 \tag{1.5}$$

Əgər $\chi = 0$ olarsa, onda (1.3) tənliyinin yeganə $u(t) = B(\omega f)(t)$ həlli var.

Əgər $\chi < 0$ olarsa, onda (1.3) tənliyi yalnız və yalnız o halda həll olunandır ki,

$$\int_{-1}^{1} \omega(\tau)\tau^{k-1} f(\tau)\,d\tau = 0, \qquad k = 1,2,...,\chi$$

şərtləri ödənilsin. Bu zaman da (1.3) tənliyinin yeganə həlli $u(t) = B(\omega f)(t)$ düsturu ilə verilir.

$\chi > 0$ olduqda (1.4) şərtlərinin köməyi ilə (1.3) tənliyinin yeganə həllinin necə ayrılmasına baxaq. $\chi > 0$ olduqda (1.3) tənliyinin bütün həlləri $u(t) = B(\omega f)(t) + b(t)Q_{\chi-1}(t)$ düsturu ilə verilir. Burada $Q_{\chi-1}$ ilə dərəcəsi $\chi - 1$-dən böyük olmayan ixtiyari çoxhədli işarə edilmişdir. Buradan alınır ki, həllin yeganəliyi üçün χ üzərinə əlavə şərtlər qoymaq lazımdır. Belə şərtlər kimi (1.4)-ün momentləri ρu funksiyaları götürülür.

Göstərək ki, $Q_{\chi-1}(t)$ çoxhədlisinin c_0, c_1, c_2,..., $c_{\chi-1}$ əmsalları (1.5) xətti cəbri tənliklər sistemindən birqiymətli təyin olunurlar. Aydındır ki, uyğun bircins sistemin ($D_0 = D_1 = D_2 = ... = D_{\chi-1} = 0$) yalnız sıfır həllinin olmasına əmin olmaq kifayətdir. Axırıncı (1.3) tənliyinin $u(t) = B(\omega f)(t)$ həllinin yeganəliyindən alınır.

Teorem 1.1-dən belə bir nəticə çıxır ki, $\chi < 0$ olduqda (1.3) tənliyi ümumiyyətlə desək həll olunan deyil.

Teorem 1.2. Əgər $\chi < 0$ olarsa, onda

$$K_0(\rho u) + \sum_{k=1}^{-\chi} \varepsilon_k x_k = f$$

tənliyinin istənilən f üçün yeganə (u, $\varepsilon_1, \varepsilon_2, ..., \varepsilon_{-\chi}$) həlli var, burada $x_k(t) = b(t)t^{k-1}$, $k = 1,...,-\chi$ $B(\omega x) = 0$ tənliyinin xətti asılı olmayan həlləridir.

İsbatı: $\varepsilon_1, \varepsilon_2, ..., \varepsilon_{-\chi}$ məchullarını

$$\sum_{k=0}^{-\chi} \varepsilon_k \int_{-1}^{1} \omega(\tau)\,\tau^{m-1} x_k(\tau)\,d\tau = \int_{-1}^{1} \omega(\tau)\,\tau^{m-1} f(\tau)\,d\tau, \quad m = 1,2,...,-\chi$$

şərtlərindən tapırıq. Bu şərtlər teorem 1.1-ə əsasən

$K_0(\rho u) = f - \sum_{k=1}^{-\chi} \varepsilon_k x_k$ tənliyinin həll olunma şərtləridir.

$$\Delta(x) = \det\left(\int_{-1}^{1} \omega(\tau)\,\tau^{m-1} x_k(\tau)\,d\tau \right) \neq 0, \qquad k,m = 1,2,...,-\chi$$

olduğundan teorem 1.1-ə əsasən $K_0(\rho u) = f - \sum_{k=1}^{-\chi} \varepsilon_k x_k$ sinqulyar inteqral tənliyinin də yeganə

$$u(t) = B(\omega t)(t) - \sum_{k=1}^{-\chi} \varepsilon_k B(\omega x_k) = B(\omega t)(t)$$

həlli var.

I növ sinqulyar inteqral tənlik üçün $(a = 0, b = 1)$ teorem 1.1 və teorem 1.2 aşağıdakı şəklə düşür.

Teorem 1.3.

$$\frac{1}{\pi} \int_{-1}^{1} \frac{u(\tau)}{\sqrt{1-\tau^2}\,(\tau - t)}\,d\tau = f(t)$$

tənliyi

$$\int_{-1}^{1} \frac{u(\tau)}{\sqrt{1-\tau^2}}\,d\tau = D_0$$

şərti ödəndikdə yeganə

$$u(t) = -\frac{1}{\pi}\int_{-1}^{1}\frac{\sqrt{1-\tau^2}\, f(\tau)}{\tau-1}d\tau + \frac{D_0}{\pi}$$

həllinə malikdir, burada D_0 – verilmiş həqiqi ədəddir.

$$\frac{1}{\pi}\int_{-1}^{1}\sqrt{\frac{1+\tau}{1-\tau}}\cdot\frac{u(\tau)}{\tau-1}d\tau = f(t) \qquad \left(\frac{1}{\pi}\int_{-1}^{1}\sqrt{\frac{1-\tau}{1+\tau}}\cdot\frac{u(\tau)}{\tau-t}d\tau = f(t)\right)$$

tənliyi yeganə

$$u(t) = -\frac{1}{\pi}\int_{-1}^{1}\sqrt{\frac{1-\tau}{1+\tau}}\cdot\frac{f(\tau)}{\tau-t}d\tau \qquad \left(u(t) = -\frac{1}{\pi}\int_{-1}^{1}\sqrt{\frac{1+\tau}{1-\tau}}\cdot\frac{f(\tau)}{\tau-t}d\tau\right)$$

həllinə malikdir.

$$\frac{1}{\pi}\int_{-1}^{1}\frac{\sqrt{1-\tau^2}\,u(\tau)}{\tau-1}d\tau = f(t)$$

tənliyi yalnız və yalnız o halda həll olunandır ki,

$$\int_{-1}^{1}\frac{f(\tau)}{\sqrt{1-\tau^2}}d\tau = 0$$

şərti ödənilmiş olsun. Bu zaman yeganə həll

$$u(t) = -\frac{1}{\pi}\int_{-1}^{1}\frac{f(\tau)}{\sqrt{1-\tau^2}\,(\tau-t)}d\tau$$

düsturu ilə verilir.

Teorem 1.4.

$$\frac{1}{\pi}\int_{-1}^{1}\frac{\sqrt{1-\tau^2}\,u(\tau)}{\tau-t}d\tau + \varepsilon = f$$

tənliyi istənilən f sağ tərəfi üçün yeganə (u,ε) həllinə malikdir, həm də

$$u(t) = -\frac{1}{\pi}\int_{-1}^{1}\frac{f(\tau)}{\sqrt{1-\tau^2}\,(\tau-t)}d\tau, \qquad \varepsilon = \frac{1}{\pi}\int_{-1}^{1}\frac{f(\tau)}{\sqrt{1-\tau^2}}d\tau.$$

(1.2) tənliyinə baxaq. $\chi > 0$ olduqda

$$F(t) = B(\omega f)(t) + \sum_{s=1}^{\chi-1} c_s b(t)\, t^s$$

və $\chi \le 0$ olduqda $F(t) = B(\omega f)(t)$ işarə edək. Burada $c_0, c_1, c_2, \ldots, c_{\chi-1}$ əmsalları (1.5) xətti cəbri tənliklər sistemindən birqiymətli təyin olunurlar. Teorem 1.1-ə əsasən aşağıdakıları alırıq.

$\chi > 0$ halı. (1.2) tənliyi (1.4) şərtlərində

$$Mu(t) \equiv u(t) + \int_{-1}^{1} \rho(\tau) M(t,\tau) u(\tau) d\tau = F(t) \tag{1.6}$$

II növ Fredqolm inteqral tənliyi ilə eynigüclüdür. Burada

$$M(t,\tau) = a(t)\omega(t)R(t,\tau) - \frac{b(t)}{\pi}\int_{-1}^{1}(\xi - t)^{-1}\omega(\xi)R(\xi,\tau)d\xi.$$

$\chi = 0$ halı. (1.2) tənliyi (1.6) tənliyi ilə eynigüclüdür.

$\chi < 0$ halı. (1.2) tənliyi (1.6) tənliyinə və

$$\ell_\nu(f,R,u) \equiv \int_{-1}^{1}\omega(\tau)(f(\tau) - R(\rho u)(\tau))\tau^{\nu-1}d\tau = 0, \quad \nu = 1,2,\ldots,-\chi \tag{1.7}$$

şərtləri məcmusu ilə ekvivalentdir.

Əgər $\chi < 0$ olarsa, teorem 1.2-yə görə

$$K_\varepsilon^0(\upsilon)(t) \equiv K_0(\rho u)(t) + R(\rho u)(t) + \sum_{k=1}^{-\chi}\varepsilon_k x_k(t) = f(t), \ \upsilon = (u,\varepsilon_1,\ldots,\varepsilon_{-\chi}) \tag{1.8}$$

tənliyi (1.6) tənliyinə və

$$\sum_{k=1}^{-\chi}\varepsilon_k\int_{-1}^{1}\omega(\tau)\tau^{\nu-1}x_k(\tau)\,d\tau = \ell_\nu(f,R,u), \quad \nu = 1,2,..,-\chi \tag{1.9}$$

şərtlər məcmusuna ekvivalentdir.

$a \neq 0$ və $b \neq 0$ (müəyyənlik üçün $a^2 + b^2 = 1$) sabit əmsalları üçün (1.2) tənliyinə baxaq. Tutaq ki, $\chi = 1$ olduqda $F(t) = B(\omega f)(t) + D_0/\rho_0$ (burada $\rho_0 = \int_{-1}^{1}\rho(\tau)\,d\tau$) və həm $\chi = 0$, həm də $\chi = -1$ olduqda $F(t) = B(\omega f)(t)$.

Yenidən teorem 1.1-ə əsaən alırıq:

$\chi = 1$ halı.

$$\int_{-1}^{1}\rho(\tau)u(\tau)\,d\tau = D_0 \tag{1.10}$$

olduqda (1.2) tənliyi (1.6) tənliyi ilə eynigüclüdür.

Burada D_0 – verilmiş həqiqi ədəddir.

$\chi = 0$ halı. (1.2) tənliyi (1.6) tənliyinə ekvivalentdir.

$\chi = -1$ halı. (1.2) tənliyi (1.6) tənliyinə və

$$\ell(f, R, u) \equiv \int_{-1}^{1} \omega(\tau)\left(f(\tau) - R(\rho u)(\tau)\right) d\tau = 0$$

şərtinə ekvivalentdir.

Əgər $\varkappa = -1$ olarsa, teorem 1.2-yə əsasən

$$K_\varepsilon(\upsilon)(t) \equiv K_0(\rho u)(t) + R(\rho u)(t) + \varepsilon b = f, \quad \upsilon = (u, \varepsilon) \tag{1.11}$$

tənliyi (1.6) tənliyinə və

$$\varepsilon = \left(b \int_{-1}^{1} \omega(\tau)\, d\tau\right)^{-1} \cdot \ell(f, R, u)$$

ifadəsinə görə ekvivalentdir.

2. Xarakteristik sinqulyar inteqral tənliklərlə əlaqədar olan ortoqonal çoxhədlilərin bəzi xassələri.

Tutaq ki, $\{P_n(t;\alpha,\beta)\}_0^\infty$ [-1,1] parçasında $\rho(t) = \rho(t;\alpha,\beta) = (1-t)^\alpha (1+t)^\beta$, $\alpha, \beta > -1$ çəkiləri ilə ortoqonal olan Yakobi cəbri çoxhədlilər sistemidir, yəni

$$\int_{-1}^{1} \rho(\tau) P_j(\tau;\alpha,\beta) P_k(\tau;\alpha,\beta)\, d\tau = \left(P_j^{(\alpha,\beta)} \cdot P_k^{(\alpha,\beta)}\right)^{\frac{1}{2}} \delta_{jk}, \quad j,k = 0,1,2....$$

burada δ_{jk} – Kroneker simvoludur,

$$P_j^{(\alpha,\beta)} = \frac{2^{\alpha+\beta+1}}{2j+\alpha+\beta+1} \cdot \frac{\Gamma(j+\alpha+1)\Gamma(j+\beta+1)}{\Gamma(j+1)\Gamma(j+\alpha+\beta+1)}$$

(j=0 olanda $(2j+\alpha+\beta+1)\Gamma(j+\alpha+\beta+1)$ hasilini $\Gamma(\alpha+\beta+2)$-yə dəyişmək lazımdır).

$$S^{(\alpha,\beta)}(u,t) = \frac{1}{\pi} \int_{-1}^{1} \rho(\tau) \frac{u(\tau)}{\tau - t} d\tau, \ \rho\ (t) = (1-t)^\alpha (1+t)^\beta, \ -1 < t < 1$$

sinqulyar inteqrala baxaq. Məlumdur ki,

$$S_n^{(\alpha,\beta)}(t) \equiv S^{(\alpha,\beta)}(P_n(\cdot;\alpha,\beta);t) = ctg\alpha\pi \cdot P_n(t;\alpha,\beta)\rho(t) -$$
$$-\frac{2^{\alpha+\beta}}{\pi} \cdot \frac{\Gamma(\alpha)\Gamma(n+\beta+1)}{\Gamma(n+\alpha+\beta+1)} F\left(n+1,-n-\alpha-\beta,1-\alpha,\frac{1-t}{2}\right) \tag{2.1}$$

burada F - hiper həndəsi funksiyadır. $\alpha+\beta$ tam olduqda

$$F\left(n+1,-n-\alpha-\beta,1-\alpha,\frac{1-t}{2}\right) = \frac{\Gamma(1-\alpha)\Gamma(n+\alpha+\beta+1)}{\Gamma(n+1)} P_{n+\alpha+\beta}(t;-\alpha,-\beta)$$

və buna görə də (2.1) - dən $\alpha+\beta$ tam olduqda alınır ki,

$$S_n^{(\alpha,\beta)}(t) = ctg\alpha\pi \cdot P_n(t;\alpha,\beta)\rho(t) - \frac{2^{\alpha+\beta}}{\sin\alpha\pi} \cdot P_{n+\alpha+\beta}(t;-\alpha,-\beta) \tag{2.2}$$

və həm də

$$P_n\left(t;-\frac{1}{2},-\frac{1}{2}\right) = P_n,\ T_n(t) = P_n \cos(n\arccos t),$$

$$P_n\left(t;-\frac{1}{2},\frac{1}{2}\right) = P_n \cos\left(\left(n+\frac{1}{2}\right)\arccos t\right)\cdot\left[\cos\left(\frac{1}{2}\arccos t\right)\right]^{-1},$$

$$P_n\left(t;\frac{1}{2},-\frac{1}{2}\right) = P_n \sin\left(\left(n+\frac{1}{2}\right)\arccos t\right)\cdot\left[\sin\left(\frac{1}{2}\arccos t\right)\right]^{-1},$$

$$P_n\left(t;\frac{1}{2},\frac{1}{2}\right) = q_n U_n(t) = q_n \sin((n+1)\arccos t)\cdot(1-t^2)^{\frac{1}{2}}$$

(burada $P_n = (2n-1)!!/(2n)!!$, $(P_0 = 1)$, $q_n = 2(2n+1)!!/(2n+2)!!$, həmçinin $T_n(t)$ və $U_n(t)$- uyğun olaraq I və II növ Çebişev çoxhədliləridir) olduğunu nəzərə alsaq, (2.2) - dən alırıq:

$$S_n^{(-1/2,-1/2)}(t) = \frac{p_n}{q_{n-1}} P_{n-1}\left(t;\frac{1}{2},-\frac{1}{2}\right),$$

$$S_n^{(-1/2,1/2)}(t) = p_n P_n\left(t;\frac{1}{2},-\frac{1}{2}\right),$$

$$S_n^{(1/2,-1/2)}(t) = p_n P_n\left(t;-\frac{1}{2},\frac{1}{2}\right),$$

$$S_n^{(-1/2,-1/2)}(t) = -\frac{q_n}{p_{n-1}} P_{n+1}\left(t;-\frac{1}{2},-\frac{1}{2}\right),$$

yəni,

$$\frac{1}{\pi}\int_{-1}^{1} \frac{T_n(t)}{\sqrt{1-\tau^2}(\tau-t)} d\tau = U_{n-1}(t),$$

$$\frac{1}{\pi}\int_{-1}^{1}\sqrt{\frac{1+\tau}{1-\tau}}\cdot\frac{\cos((n+\frac{1}{2})\arccos\tau)}{\cos(\frac{1}{2}\arccos\tau)(\tau-t)}d\tau=-\frac{\sin((n+\frac{1}{2})\arccos\tau)}{\sin(\frac{1}{2}\arccos\tau)} \tag{2.3}$$

$$\frac{1}{\pi}\int_{-1}^{1}\sqrt{\frac{1-\tau}{1+\tau}}\cdot\frac{\sin((n+\frac{1}{2})\arccos\tau)}{\sin(\frac{1}{2}\arccos\tau)(\tau-t)}d\tau=-\frac{\cos((n+\frac{1}{2})\arccos\tau)}{\cos(\frac{1}{2}\arccos\tau)},$$

$$\frac{1}{\pi}\int_{-1}^{1}\frac{\sqrt{1-\tau^2}\cdot U_n(\tau)}{\tau-t}d\tau=-T_{n+1}(t)$$

Beləliklə $T_n(t)$, $\dfrac{\cos((n+\frac{1}{2})\arccos t)}{\cos(\frac{1}{2}\arccos t)}$, $\dfrac{\sin((n+\frac{1}{2})\arccos t)}{\sin(\frac{1}{2}\arccos t)}$ çoxhədliləri və $U_n(t)$

$$\frac{1}{\pi}\int_{-1}^{1}\frac{u(\tau)}{\tau-t}d\tau=f(t)$$

inteqral tənliyi ilə əlaqəlidirlər və onun uyğun olaraq h_0 ($f(t)=U_{n-1}(t)$ olduqda),

h(1) ($f(t)=\dfrac{\cos((n+\frac{1}{2})\arccos t)}{\cos(\frac{1}{2}\arccos t)}$ olduqda) və *h(-1,1)* ($f(t)=-T_{n+1}(t)$ olduqda)

siniflərində həllidirlər.

$$aY(t)+\frac{b}{\pi}\int_{-1}^{1}\frac{Y(\tau)}{\tau-t}d\tau=f(t) \tag{2.4}$$

xarakteristik inteqral tənliyinə baxaq, burada $a\neq 0$ və $b\neq 0$ - həqiqi sabitlərdir (müəyyənlik üçün fərz edək ki, $a^2+b^2=1$)

Tutaq ki, *h*- h_0, *h(-1), h(1)* və *h(-1,1)* siniflərindən biridir, *z(t)* və χ uyğun olaraq *h* sinfində fundamental funksiya və (2.4) tənliyinin indeksidir.

$ctg\alpha\pi=-b/a$ və χ – tam ədəd olduğundan (2.4) - dən alınır ki,

$$a\rho(t)P_n(t;\alpha,\beta)+\frac{b}{\pi}\int_{-1}^{1}\rho(\tau)\frac{P_n(\tau;\alpha,\beta)}{\tau-t}d\tau=-\frac{2^\chi b}{\sin\alpha\pi}\cdot P_{n-\chi}(t;-\alpha,-\beta) \tag{2.5}$$

$$a\frac{P_{n-\chi}(t;-\alpha,-\beta)}{\rho(t)}-\frac{b}{\pi}\int_{-1}^{1}\frac{P_{n-\chi}(\tau;-\alpha,-\beta)}{\rho(\tau)(\tau-t)}d\tau=-\frac{2^\chi b}{\sin\alpha\pi}\cdot P_n(t;\alpha,\beta) \tag{2.6}$$

burada $\rho(t)=z(t)=(1-t)^\alpha(1+t)^\beta$.

Tutaq ki, $a(t)\neq 0$ və $b(t)\neq 0$ - həqiqidir, [-1,1]-də kəsilməzdirlər H([-1,1]) sinfinə daxil olan funksiyalardırlar, həm də ixtiyari $t\in[-1,1]$ üçün $a^2(t)+b^2(t)>0$.

x(z) və *z(t)* uyğun olaraq *h* sinfində

$$a(t)\rho(t)u(t)+\frac{b(t)}{\pi}\int_{-1}^{1}\rho(\tau)\frac{u(\tau)}{\tau-t}d\tau=-f(t), \qquad -1<t<1 \qquad (2.7)$$

(burada $\rho(t)=z(t)/r(t)$) tənliyinin kanonik və fundamental funksiyalarıdır.

Tutaq ki, *G(z)* $C\in[-1,1]$ - də təyin olunmuş istənilən funksiyadır və fərz edək ki, sonsuz uzaqlaşmış nöqtə ətrafında

$$G(z)=\sum_{j=-\infty}^{N}G_j z^j,$$

burada *N*- tam ədəddir.

$$P\cdot P\cdot(G;z)\equiv\begin{cases}\sum_{j=0}^{N}G_j z^j, \; N\geq 0 \; olduqda\\ 0 \quad , N<0 \; olduqda\end{cases}$$

ifadəsi *G(z)* funksiyasının baş qiyməti adlanır.

İsbat olunmuşdur ki, istənilən *P* çoxhədlisi üçün

$$a(t)\rho(t)P(t)+\frac{1}{\pi}\int_{-1}^{1}\rho(\tau)\frac{b(\tau)P(\tau)}{\tau-t}d\tau=P\cdot P\cdot(PX;t), \quad t\in(-1,1) \quad (2.8)$$

$$a(t)\omega(t)P(t)+\frac{1}{\pi}\int_{-1}^{1}\omega(\tau)\frac{b(\tau)P(\tau)}{\tau-t}d\tau=-P\cdot P\cdot(PX^{-1};t), \quad t\in(-1,1) \quad (2.9)$$

burada $\omega(t)=1/z(t)r(t)$.

Tutaq ki, $\{P_j(t;\rho)\}_0^\infty$ - $\rho(t)=z(t)/r(t)$ çəkiləri ilə və ciddi müsbət əmsallı [-1,1]-də ortoqonal olan cəbri çoxhədlilər sistemidir.

$n\geq\max(0,-\chi)$ olduqda

$$q_n(z)=P\cdot P\cdot\{(-1)^\chi X(\cdot)P(\cdot;\rho);z\}, \quad z\in C$$

düsturu ilə təyin olunan $q_n(z)$ çoxhədlisinin sonsuzluqda tərtibi *n* və z^n-in əmsalı ciddi müsbətdir.

Aşağıdakı teoremlər doğrudur.

Teorem 2.1. Tutaq ki, *b(t)* - $l\geq 0$ tərtibli çoxhədlidir. Onda istənilən $n\geq\max(0,l-\chi)$ və $t\in(-1,1)$ üçün

$$a(t)\rho(t)P_{n+\chi}(t;\rho)+\frac{b(t)}{\pi}\int_{-1}^{1}\rho(\tau)\frac{P_{n+\chi}(\tau;\rho)}{\tau-t}d\tau=(-1)^{\chi}q_n(t) \qquad (2.10)$$

və $\{q_j(t)\}$, $j\geq\max(0,l-\chi)$ çoxhədlilər sistemi [-1,1]-də $\omega(t)=1/z(t)r(t)$ çəkiləri ilə ortoqanaldır.

Bundan sonra $q_j(t)$-ni $q_j(t;\omega)$ ilə işarə edəcəyik.

Teorem 2.2. Tutaq ki, *b(t)* - $l\geq 0$ tərtibli çoxhədlidir. Onda istənilən $n\geq\max(\chi,l)$ və $t\in(-1,1)$ üçün

$$a(t)\,\omega(t)q_{n-\chi}(t;\omega)-\frac{b(t)}{\pi}\int_{-1}^{1}\omega(\tau)\frac{q_{n-\chi}(\tau;\omega)}{\tau-t}d\tau=(-1)^{\chi}P_n(t;\rho) \qquad (2.11)$$

Teorem 2.3. Tutaq ki, *b(t)* - $l\geq 0$ tərtibli çoxhədlidir. Onda istənilən $n\geq\max(\chi,l)$ və bütün $z\in C$ üçün

$$P_{n+1}(z;\rho)\,q_{n-\chi}(z;\omega)-P_n(z;\rho)\,q_{n-\chi+1}(z;\omega)=(-1)^{\chi+1}c_n b(z) \qquad (2.12)$$

burada c_n- z-dən asılı olmayan sabitdir.

Məlumdur ki, $P_n(t;\rho)$ və $q_{n-\chi}(t;\omega)$ çoxhədlilərinin sıfırları həqiqidir, müxtəlifdir və (-1,1) intervalında yerləşir.

Tutaq ki, $\tau_{j,n}$, $j=1,2,..,n$ - $P_n(t;\rho)$ çoxhədlisinin, $t_{j,n-\chi}$, $j=1,2,..,n-\chi$ isə $q_{n-\chi}(t;\omega)$ çoxhədlisinin sıfırlarıdır. (2.12)-dən belə nəticə çıxır ki, əgər $P_n(t;\rho)$ və $q_{n-\chi}(t;\omega)$ çoxhədlilərinin sıfırları arasında üst-üstə düşənləri varsa, onda onlar *b(t)* çoxhədlisinin də sıfırları olurlar.

3. Sinqulyar inteqral tənliklərin parçada konstruktiv həll metodları.

3.1. Kvadratur metodunun sxeminin qurulması.

Tutaq ki, *h*- h_0 , *h(-1), h(1)* və *h(-1,1)* siniflərindən biridir, *z(t)* və χ isə uyğun olaraq *h* sinfində fundamental funksiya və K^0 operatorunun indeksidir. Tutaq ki, $\rho(t)=z(t)/r(t)$ və $\{P_j(t;\rho)\}_0^\infty$ - [-1,1] parçasında ortoqonal olan cəbri çoxhədlilər sistemidir. $P_n(t;\rho)$ çoxhədlisinin sıfırlarını $\tau_{j,n}$, $j=1,2,..,n$ ilə işarə edək. Tutaq ki,

$$\ell_{j,n}=\frac{P_n(t;\rho)}{(t-\tau_{j,n})P_n'(\tau_{j,n};\rho)}\ ,\quad j=1,2,..,n$$

və

$$\lambda_{j,n}(\rho)=\int_{-1}^{1}\rho(\tau)\,\ell_{j,n}(\tau;\rho)d\tau,\quad j=1,2,..,n$$

Kristofel ədədləridir,

$$\int_{-1}^{1}\rho(\tau)\,u(\tau)d\tau=\sum_{j=1}^{n}\lambda_{j,n}(\rho)\,u(\tau_{j,n})+R_n^G(u,\rho),\ j=1,2,..,n \qquad (3.1)$$

cəbri dəqiqlik dərəcəsi *2n-1*-ə bərabərdir. $\rho(t)=\rho(t;\alpha,\beta)=(1-t)^{\alpha}(1+t)^{\beta}$, $\alpha,\beta>1$ halında $\ell_{j,n}(t;\rho)$ və $\lambda_{j,n}(\rho)$ -nu uyğun olaraq $\ell_{j,n}(t;\alpha,\beta)$ və $\lambda_{j,n}(\alpha,\beta)$ ilə işarə edəcəyik.

Təqribi həlli $h_{n-1}(z_n,t;\rho)=\sum_{j=1}^{n}z_{j,n}\ell_{j,n}(t;\rho),\ z_n=(z_{1,n},z_{2,n},..,z_{n,n})^T$

Laqranj interpolyasiya çoxhədlisi şəklində axtaracağıq. $z_n=(z_{1,n},z_{2,n},..,z_{n,n})^T$ - vector-sütununun kordinatları

$$(A_n+R_n)\,z_n=f_m \qquad (3.2)$$

xətti cəbri tənliklər sistemindən təyin olunur, burada, $f_m=(f(t_{1,m}),..,f(t_{m,m})),\ m=n-\chi$,

$t_{i,m}, i=1,..,m-$ isə $q_m(t)=q_m(t;\omega)$ çoxhədlisinin sıfırları; $A_n=(a_{ij})$, $R_n=(R_{ij})$- *mxn* ölçülü matrislərdir və *i=1,..,m*, *j=1,..,n.*

$$a_{i,j}=\begin{cases}-\dfrac{b(t_{i,m})\lambda_{j,n}(\rho)}{\pi(t_{i,m}-\tau_{j,n})}, & \tau_{j,n}\neq t_{i,m},\\[2ex] (-1)^{\chi}\dfrac{q_m'(\tau_{j,n};\omega)}{P_m(\tau_{j,n};\rho)}-\dfrac{1}{\pi}\lambda_{j,n}(\rho)b(\tau_{j,n}'), & \tau_{j,n}=t_{i,m},\end{cases}$$

$$R_{i,j} = \lambda_{j,n}(\rho)\, R\left(t_{i,m}, \tau_{j,n}\right).$$

(3.2) sistemi aşağıdakı kimi qurulur. Nəzərə alsaq ki,

$$K_0 = \left(\rho(\cdot)\, P_n(\cdot;\rho)\right)(t) = (-1)^{\chi} q_m(t;\omega)$$

və

$$q_m\left(\tau_{j,n};\omega\right) = (-1)^{\chi} \pi^{-1} b\left(\tau_{j,n}\right) \lambda_{j,n}(\rho) P_n'\left(\tau_{j,n};\rho\right),$$

alarıq ki,

$$K_0 = \left(\rho(\cdot)\; L_{n-1}(u,\cdot;\rho)\right)(t) = \tag{3.3}$$

$$= \sum_{j=1}^{n} \frac{(-1)^{\chi}\left(q_m(t;\omega) - q_m\left(\tau_{j,n};\omega\right) - \pi^{-1}\left(b(t) - b\left(\tau_{j,n}\right)\right)\lambda_{j,n}(\rho) P_n'\left(\tau_{j,n};\rho\right)\right)}{\left(t - \tau_{j,n}\right) P_n'\left(\tau_{j,n};\rho\right)} u\left(\tau_{j,n}\right)$$

$$\begin{aligned} K_0(\rho u)(t) &= a(t)\rho(t)\left(u(t) L_{n-1}(u,t;\rho)\right) + \\ &\quad + K_0\left(\rho(\cdot)\; L_{n-1}(u,\cdot;\rho)\right)(t) + b(t) R_n(u,t;\rho), \end{aligned}$$ burada

$$R_n(u,t;\rho) = \pi^{-1} \int_{-1}^{1} \rho(\tau)(\tau - t)^{-1}\left(u(\tau) - L_{n-1}(u,\tau;\rho)\right) d\tau.$$

Onda (3.3) münasibətinə əsasən

$$K_0(\rho u)\left(t_{i,m}\right) = \sum_{j=1}^{n} a_{i,j} u\left(\tau_{j,n}\right) + a\left(t_{i,m}\right)\rho\left(t_{i,m}\right)\left(u\left(t_{i,m}\right) - L_{n-1}\left(u, t_{i,m};\rho\right)\right) + b\left(t_{i,m}\right) R_n\left(u, t_{i,m};\rho\right), \quad i = 1,2$$

$$\int_{-1}^{1} \rho(\tau) R\left(t_{i,m};\tau\right) u(\tau)\, d\tau = \sum_{j=1}^{n} R_{i,j} u\left(\tau_{j,n}\right) + R_n\left(R\left(t_{i,m},\cdot\right) u(\cdot);\rho\right).$$

Beləliklə $t=t_{i,m}$, $i=1,..,m$ götürməklə

$$\begin{aligned} \left(a_{i,j} + R_{i,j}\right) u\left(\tau_{j,n}\right) &= f\left(t_{i,m}\right) - a\left(t_{i,m}\right)\rho\left(t_{i,m}\right)\left(u\left(t_{i,m}\right) - L_{n-1}\left(u, t_{i,m};\rho\right)\right) - \\ &- b\left(t_{i,m}\right) R_n\left(u, t_{i,m};\rho\right) - R_n^G\left(R\left(t_{i,m},\cdot\right) u(\cdot);\rho\right). \end{aligned}$$

$t=t_{i,m}$ olduqda $a(t_{i,m})\rho(t_{i,m})(u(t_{i,m})-L_{n-1}(u,t_{i,m};\rho))$, $b(t_{i,m})R_n(u,t_{i,m};\rho)$ və

$R_n^G(R(t_{i,m};u(\cdot);\rho))$ qiymətlərini nəzərə almamaqla axtarılan $u(t)$ funksiyasının $u(\tau_{j,n})=z_n$

$j=1,..,n$ təqribi qiymətlərinə nəzərən (3.2) xətti sisteminə gəlirik.

$A_n z_n=g_m$, $g_m=(g_{1,m},..,g_{m,m})^T$ xətti cəbri tənliklər sisteminin tərs matrisinin tapılamsını araşdıraq. Uyğun matris xarakteristik matris adlanır.

Tutaq ki, $L_{n-1}(z_n,\tau_{j,n};\rho)=z_{jn}$, $j=1,..,n$, $m=n-\chi$

$$\hat{a}_{j,i}=\begin{cases}\dfrac{b(\tau_{j,n})\lambda_{i,m}(\omega)}{\pi(\tau_{j,n}-t_{i,m})}, & \tau_{j,n}\neq t_{i,m},\\[2ex] (-1)^{\chi}\dfrac{P_n'(t_{i,m};\rho)}{q_m(t_{i,m};\omega)}+\dfrac{1}{\pi}b'(t_{i,m})\lambda_{i,m}(\omega), & \tau_{j,n}=t_{i,m},\end{cases}$$

və

$$\lambda_{i,m}(\omega)=\int_{-1}^{1}w(\tau)\,\ell_{i,m}(\tau,\omega)d\tau\;\ell(\tau,\omega)=\frac{q_m(t,\omega)}{(t-t_{i,m})\,q_m'(t_{i,m};\omega)},\;\; i=1,..,m.$$

Aşağıdakı teorem doğrudur.

Teorem 3.1. Aşağıdakı xətti cəbri tənliklər sistemi verilmişdir.

$$\begin{aligned}&\sum_{j=1}^{n}a_{ij}z_{jn}=g_{i,n}\,,\;\; i=1,..,m\\ &\sum_{j=1}^{n}d(\chi)\lambda_{j,n}(\rho)\,\tau_{j,n}^{\nu}z_{jn}=d(\chi)D_{\nu}\,,\;\; \nu=0,1,..,\chi-1\end{aligned}\tag{3.4}$$

burada $d(\chi)=1$, $\chi>0$ olduqda və $d(\chi)=0$, $\chi\leq 0$, $D_0,..,D_{\chi-1}$ – verilmiştam ədədlərdir. Verilmiş xətti tənliklər sisteminin

a) $\chi\geq 0$ olduqda yeganə həlli var.

$$z_{jn}=\sum_{j=1}^{m}\hat{a}_{ji}g_{i,m}+d(\chi)\,b(\tau_{j,n})\sum_{s=0}^{\chi-1}c_s\,\tau_{j,n}^{s}\,,\;\; j=1,..,n\tag{3.5}$$

burada $c_0,..,c_{\chi-1}$ əmsalları

$$\sum_{s=0}^{\chi-1}c_s\left(\sum_{j=1}^{n}\lambda_{j,n}(\rho)\,\tau_{j,n}^{s+\nu}b(\tau_{j,n})\right)=D_{\nu}\,,\;\; \nu=0,1,..,\chi-1\tag{3.6}$$

b) $\chi<0$ olan halda yalnız və yalnız o zaman həll var ki,

$$\sum_{i=1}^{m} \lambda_{i,m}(\omega)\, t_{i,m}^{\nu-1} g_{i,m} = 0, \; \nu = 0,1,..,-\chi \tag{3.7}$$

şərti ödənilsin. Bu zaman həll (3.5) düsturu ilə verilir.

İsbatı. Tutaq ki, $\chi\geq 0$

$$K_0(\rho(\cdot)\; L_{n-1}(z_n,\cdot;\rho))(t_{i,m}) = g_{i,m}\,,\; i=1,..,m, \tag{3.8}$$

$$\int_{-1}^{1} \rho(\tau)\,\tau^{\nu} L_{n-1}(z_n,\tau;\rho)\,d\tau = D_{\nu}\,, \quad \nu = 0,1,..,\chi-1 \tag{3.9}$$

$n\geq \ell+\chi$ olduqda $K_0 = (\rho(\cdot)\; L_{n-1}(z_n,\cdot;\rho))(t)$ ifadəsi $m=n-\chi$ dərəcəli cəbri çoxhədlidirvə (3.8)-ə uyğun olaraq $t_{i,m}$ nöqtələrində $g_{i,m}$ qiymətlərini alır. Deməli, o $L_{m-1}(g_m,t;\omega)$ ($L_{m-1}(g_m,t_{i,m};\omega) = g_{i,m}$, $i=1,..,m$) interpolyasiya polinomu ilə üst-üstə düşür. Buradan alınır ki, (3.8) xətti cəbri tənliklər sistemi $L_{n-1}(z_n,t;\rho)$-yə nəzərən

$$K_0(\rho(\cdot)\; L_{n-1}(z_n,\cdot;\rho))(t_{i,m}) = L_{n-1}(g_m,t;\omega) \tag{3.10}$$

sinqulyar inteqral tənliyi ilə eynigüclüdür. Məlum teoremə görə (3.10) tənliyinin (3.9) şərtləri daxilində

$$L_{n-1}(z_n,t;\rho) = B(\omega(\cdot)\; L_{m-1}(g_m,\cdot;\omega))(t) + d(\chi)b(t)\sum_{s=0}^{\chi-1} c_s t^s \tag{3.11}$$

kimi yeganə həlli var, burada $c_0,..,c_{\chi-1}$ əmsalları

$$\sum_{s=0}^{\chi-1} c_s \int_{-1}^{1} \rho(\tau)\,\tau^{s+\nu} b(\tau)\,d\tau = D_{\nu}\,,\; \nu = 0,1,..,\chi-1$$

xətti cəbri tənliklər sistemindən təyin edilir və (3.6) ilə üst-üstə düşür.

(3.11)-i nəzərə almaqla

$$B(\omega(\cdot)\; q_m(\,\cdot;\omega))(t) = (-1)^{\chi} P_n(t;\rho),$$

$$P_n(t_{i,m};\rho) = -\frac{(-1)^{\chi}}{\pi} b(t_{i,m})\lambda_{i,m}(\omega) q_m^{'}(t_{i,m};\omega)$$

alarıq. Başqa sözlə,

$$B(\omega(\cdot)\; L_{m-1}(g_m,\cdot;\omega))(t) =$$

$$= \sum_{i=1}^{m} \frac{(-1)^{\chi}\left(P_n(t;\rho) - P_n(t_{i,m};\rho)\right) + \pi^{-1}\left(b(t) - b(t_{i,m})\right)\lambda_{i,m}(\omega) q_m^{'}(t_{i,m};\omega)}{(t-t_{i,m})\, q_m^{'}(t_{i,m};\omega)} \cdot g_{i,m}$$

Ona görə də (3.11)-dən taparıq ki,

$$z_{jn}=\sum_{j=1}^{m}\hat{a}_{ji}g_{i,m}+d(\chi)\,b(\tau_{j,n})\sum_{s=0}^{\chi-1}c_s\,\tau_{j,n}^{s},\quad j=1,..,n.$$

Bununla da $\chi\geq 0$ halı üçün teorem isbat olunur.

Tutaq ki, $\chi<0$

$$\sum_{j=1}^{n}a_{ij}z_{jn}=g_{i,n},\ \ i=1,..,m$$

xətti tənliklər sistemi və (3.7) şərtlərini uyğun olaraq

$$K_0(\rho(\cdot)\ L_{n-1}(z_n,\cdot;\rho))(t_{i,m})=g_{i,m}\,,\ i=1,..,m, \tag{3.12}$$

$$\int_{-1}^{1}\omega(\tau)\ L_{n-1}(g_m,\tau;\omega)\tau^{\nu-1}d\tau=0,\qquad \nu=0,1,..,-\chi \tag{3.13}$$

$\chi\geq 0$ halında olduğu kimi, (3.12) xətti tənliklər sistemi

$$K_0(\rho(\cdot)\ L_{n-1}(z_n,\cdot;\rho))(t_{i,m})=L_{n-1}(g_m,t;\omega)$$

sinqulyar inteqral tənliyi ilə eynigüclüdür ($L_{n-1}(z_n,t;\rho)$-ə nəzərən). Məlum teoremə əsasən bu tənliyin yeganə həlli var və bu həll aşağıdakıdır

$$L_{n-1}(z_n,t;\rho)=B(\omega(\cdot)\ L_{m-1}(g_m,\cdot;\omega))(t).$$

Buradan da teoremin b) bəndi isbat olunur.

Teorem 3.2. $\chi<0$ olarsa onda,

$$\sum_{j=1}^{n}a_{ij}z_{jn}+\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}x_k(t_{i,m})=g_{i,m}\,,\ \ j=1,..,m \tag{3.14}$$

burada

$$x_k(t)=b(t)\,t^{k-1},\ k=1,..,-\chi$$

yeganə $(z_{1n},..,z_{nn},\varepsilon_{1n},..,\varepsilon_{-\chi n})$ həllinə malikdir və

$$z_{jn}=\sum_{i=1}^{m}\hat{a}_{ji}g_{i,m}\,,\ \ j=1,..,n \tag{3.15}$$

$$\varepsilon_{kn}=\frac{1}{\Delta(\chi)}\sum_{s=1}^{-\chi}\Delta_{sk}(\chi)\sum_{i=1}^{m}\lambda_{i,m}(\omega)\ t_{i,m}^{s-1}g_{i,m}\,,\ k=1,..,-\chi \tag{3.16}$$

burada, $\Delta_{sk}(\chi)$ - aşağıdakı determinantın cəbri tamamlayıcısıdır:

$$\Delta(\chi)=\det\left(\int_{-1}^{1}\omega(\tau)\,x_k(\tau)\,\tau^{\nu-1}d\tau\right),\qquad k,\nu=1,..,-\chi$$

İsbatı. (3.14) xətti cəbri tənliklər sistemini

$$K_0(\rho(\cdot)\ L_{n-1}(z_n,\cdot;\rho))(t_{i,m})+\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}x_k(t_{i,m})=g_{i,m}\,,\ i=1,..,m \quad (3.17)$$

şəklində yazmaq olar. $n\geq\ell$ olduqda

$$K_0(\rho(\cdot)\ L_{n-1}(z_n,\cdot;\rho))(t)+\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}x_k(t)$$

ifadəsi $m=n-\chi$ dərəcəli cəbri çoxhədlidir və (3.17)-yə əsasən $t_{i,m}$ nöqtələrində $g_{i,m}$ qiymətlərini alır. Deməli, o həm də $L_{m-1}(g_m,t;\omega)$ interpolyasiya çoxhədlisi ilə üst-üstə düşür. Buradan alınır ki, (3.17)

$$K_0(\rho(\cdot)\ L_{n-1}(z_n,\cdot;\rho))(t)+\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}x_k(t)=L_{m-1}(g_m,t;\omega)$$

ilə $(L_{n-1}(z_n,t;\rho),\varepsilon_{1n},..,\varepsilon_{-\chi n})$ - ə nəzərən eynigüclüdür. $\varepsilon_{1n},..,\varepsilon_{-\chi n}$ məchulları

$$K_0(\rho(\cdot)\ L_{n-1}(z_n,\cdot;\rho))(t)=L_{m-1}(g_m,t;\omega)-\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}x_k(t) \quad (3.18)$$

inteqral tənliyinin həll olunma şərtlərindən tapılır, hansı ki, məlum teoremə görə

$$\int_{-1}^{1}\omega(\tau)\left(L_{m-1}(g_m,t;\omega)-\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}x_k(\tau)\right)\tau^{\nu-1}d\tau=0\,,\ \ \nu=1,...,-\chi$$

$$\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}\int_{-1}^{1}\omega(\tau)\,x_k(\tau)\,\tau^{\nu-1}d\tau=\int_{-1}^{1}\omega(\tau)\,L_{m-1}(g_m,t;\omega)\,\tau^{\nu-1}d\tau\,,\ \ \nu=1,...,-\chi \quad (3.19)$$

$$\sum_{k=1}^{-\chi}\varepsilon_{kn}\int_{-1}^{1}\omega(\tau)\,x_k(\tau)\,\tau^{\nu-1}d\tau=\sum_{i=1}^{m}\lambda_{i,m}(\omega)g_{i,m}\,t_{i,m}^{\nu-1}\,,\ \ \nu=1,...,-\chi$$

Bu sistemin determinantı

$$\Delta(\chi)=\det\left(\int_{-1}^{1}\omega(\tau)x_k(\tau)\,\tau^{m-1}d\tau\right), \qquad k,m=1,..,-\chi$$

sıfırdan fərqli olduğu üçün (3.16) alınır.

Məlum teoremə görə (3.18)-dən tapırıq ki,

$$L_{n-1}(z_n,t;\rho)=B(\omega(\cdot)\ L_{m-1}(g_m,\cdot;\omega))(t).$$

Buradan da (3.15) alınır.

3.2. Sxemlərin əsaslandırılması.

(1.2) tənliyinin həllini $L_{2,\rho}$ – də axtaracağıq. Bu (1.1) tənliyinin $L_{2,\omega}$ sinfində həllinin axtarılması ilə eynigüclüdür. (1.6) tənliyini operator şəklində yazaq.

$$Mu \equiv u + Tu \tag{3.20}$$

Bu $X=L_{2,\rho}$ fəzasında, burada

$$T(u)(t) = T(Mu)(t) = \int_{-1}^{1} \rho(\tau) M(t,\tau)\, u(\tau)\, d\tau$$

X-də tamamilə kəsilməz operatordur.

$\chi>0$ halı. Tutaq ki, (1.2) tənliyinin (1.4) əlavə şərtlər daxilində X-də yeganə həlli var. Bu bircins $Mu=0$ tənliyinin X-də yalnız sıfır həllinin olması ilə eynigüclüdür.

$\chi>0$ olduqda (3.2) sistemi axıra qədər təyin olunmamışdır. Ona görə də diskretləşdirilmiş əlavə (1.4) şərtlərini əlavə etməklə aşağıdakı xətti cəbri tənliklər sistemini alarıq.

$$\begin{cases} \sum\limits_{j=1}^{n} \left(a_{ij} + R_{ij}\right) z_{jn} = f_{i,m}, & i=1,..,m, m=n-\chi \\ \sum\limits_{j=1}^{n} \lambda_{j,n}(\rho)\tau_{j,n}^{\nu} z_{jn} = D_{\nu}, & \nu = 0,1,..,\chi-1 \end{cases} \tag{3.21}$$

burada $f_{i,m}=f(t_{i,m})$ işarələnmişdir. Bu sistem teorem 3.1-ə əsasən aşağıdakı xətti cəbri tənliklər sistemi ilə eynigüclüdür.

$$z_{jn} + \sum_{k=1}^{n}\left(\sum_{i=1}^{m} \hat{a}_{ji} R_{i,k}\right) z_{kn} = F_{j,m}, \; j=1,..,n \tag{3.22}$$

burada

$$F_{j,m} = \sum_{i=1}^{m} \hat{a}_{ji\nu} f_{i,m} + b(\tau_{j,n}) \sum_{s=1}^{\chi-1} c_s \tau_{j,m}^{s},$$

$c_0, \ldots, c_{\chi-1}$ əmsalları isə (3.6) xətti cəbri tənliklər sistemindən birqiymətli təyin olunurlar.

$$L_{m-1}(R,t;\rho) = L_{m-1}(R(t,\tau),t;\omega) L_{n-1}(R,\tau;\rho) = L_{n-1}(R(t,\tau),\tau;\rho)$$

işarə edək.

$$X_n = \left\{ \sum_{j=1}^{n-1} \alpha_j P_j(t,\rho) \right\}$$

işarə edək, burada $\alpha_0, \alpha_1, \ldots, \alpha_{n-1}$ – istənilən həqiqi ədədlərdir.

Nəzərə alsaq ki,

$$M_{m-1}(t,\tau) \equiv a(t)\omega(t)L_{m-1}(R(t,\tau),t;\omega) - \frac{b(t)}{\pi}\int_{-1}^{1}\omega(\xi)\frac{L_{m-1}(R(\xi,\tau),\xi;\omega)}{\xi - t}d\xi =$$

$$= \sum_{i=1}^{m}\frac{(-1)^{\chi}\left[P_n(t;\rho) - P_n(t_{i,m};\rho)\right] + \dfrac{b(t)-b(t_{i,m})}{\pi}\lambda_{i,m}(\omega)q'_m(t_{i,m};\omega)R(t_{i,m};\tau)}{(t-t_{i,m})\,q'_m(t_{i,m};\omega)}$$

$t(n > l+\chi)$–yə nəzərən $(n-1)$ dərəcəli çoxhədlilərdir. Onda (3.22) sistemini X_n fəzasında aşağıdakı xətti operator tənliyi şəklində yazmaq olar.

$$M_{n-1}U_{n-1} \equiv U_{n-1} + T_{n-1}U_{n-1} = F_{n-1}$$

burada,

$$U_{n-1} \in x_n, \qquad z_{n-1}(t) = T_{n-1}(U_{n-1})(t) =$$

$$= \int_{-1}^{1}\rho(\tau)\,L_{n-1}(M_{m-1}(t,\tau)\,U_{n-1}(\tau),\tau;\rho)\,d\tau,$$

$$F_{n-1}(t) = L_{n-1}(B(\omega(\cdot)L_{m-1}(f,\cdot,\omega),t;\rho)) + b(t)\sum_{s=0}^{\chi-1}c_s t^s.$$

$E^{(1)}_{m-1}(R)_\infty$ $(E^{(2)}_{n-1}(R)_\infty)$ ilə *R(τ,t)* funksiyasının *t*-yə (*τ*-ya) nəzərən *m-1* *(n-1)* dərəcədən böyük olmayan cəbri çoxhədlilərlə müntəzəm yaxınlaşmalarını işarə edək.

$x \in c[-1,1]$ üçün

$$\|x\|_\infty = \max\{\,|\,x(t)\,|\,; t \in [-1,1]\},\ r_0 = \min\{r(t),\ t \in [-1,1]\},$$

$$\rho_0 = \int_{-1}^{1}\rho(\tau)\,d\tau,\ \omega_0 = \int_{-1}^{1}\omega(\tau)\,d\tau.$$

X fəzasında $MU_{n-1} - M_{n-1}U_{n-1}$, $U_{n-1} \in X_n$ fərqini qiymətləndirək.

$$MU_{n-1} - M_{n-1}U_{n-1} = \int_{-1}^{1}\rho(\tau)\left[M(t,\tau) - L_{n-1}(M(t,\tau),\tau;\rho)\right]U_{n-1}(\tau)\,d\tau +$$

$$+\int_{-1}^{1}\rho(\tau)L_{n-1}([M(t,\tau) - M_{m-1}(t,\tau)]\,U_{n-1}(\tau),\tau;\rho)\,d\tau \stackrel{def}{=} B_1(t) + B_2(t),$$

burada nəzərə alınmışdır ki,

$$\int_{-1}^{1}\rho(\tau)L_{n-1}(M(t,\tau)U_{n-1}(\tau),\tau;\rho)d\tau = \int_{-1}^{1}\rho(\tau)L_{n-1}(M(t,\tau),\tau;\rho)U_{n-1}(\tau)\,d\tau.$$

X fəzasında $B_1(t)$ və $B_2(t)$ -ni qiymətləndirək.

$$B_1(t)=\int_{-1}^{1}\rho(\tau)[a(t)\,\omega(t)\,(R(t,\tau)-L_{n-1}(R(t,\tau),t;\rho))-$$

$$-\frac{b(t)}{\pi}\int_{-1}^{1}\omega(\xi)\frac{R(\xi,\tau)-L_{n-1}(R(\xi,\tau),\xi;\rho)}{\xi-t}d\xi\Bigg]U_{n-1}(\tau)d\tau.$$

Hölder bərabərsizliyini tətbiq etməklə, alarıq ki,

$$|B_1(t)|\le\|U_{n-1}\|_{2,\rho}\Bigg(\int_{-1}^{1}\rho(\tau)[a(t)\omega(t)(R(t,\tau)-L_{n-1}(R(t,\tau),t;\rho))-$$

$$-\frac{b(t)}{\pi}\int_{-1}^{1}\omega(\xi)\frac{R(\xi,\tau)-L_{n-1}(R(\xi,\tau),\xi;\rho)}{\xi-t}d\xi\Bigg]^2 d\tau\Bigg)^{1/2}\le$$

$$\le\|U_{n-1}\|_{2,\rho}\Bigg[2a^2(t)\omega^2(t)\int_{-1}^{1}\rho(\tau)(R(t,\tau)-L_{n-1}(R(t,\tau),t;\rho))^2d\tau+$$

$$+2b^2(t)\int_{-1}^{1}\rho(\tau)\left(\frac{1}{\pi}\int_{-1}^{1}\omega(\xi)\frac{R(\xi,\tau)-L_{n-1}(R(\xi,\tau),\xi;\rho)}{\xi-t}d\xi\right)^2d\tau\Bigg]^{1/2}\le$$

$$\le\|U_{n-1}\|_{2,\rho}[8a^2(t)\,\omega^2(t)\left(E_{n-1}^{(2)}(R)_\infty\right)^2\rho_0+$$

$$+2b^2(t)\int_{-1}^{1}\rho(\tau)\left(\frac{1}{\pi}\int_{-1}^{1}\omega(\xi)\frac{R(\xi,\tau)-L_{n-1}(R(\xi,\tau),\xi;\rho)}{\xi-t}d\xi\right)^2d\tau\Bigg]^{1/2}$$

buradan,

$$\int_{-1}^{1}\rho(t)|B_1(t)|^2dt\le\|U_{n-1}\|_{2,\rho}^2\Bigg[8\rho_0\left(E_{n-1}^{(2)}(R)_\infty\right)^2\int_{-1}^{1}\rho(t)a^2(t)\omega^2(t)dt+$$

